# AZƏRBAYCAN BASKETBOL FEDERASİYASI

# Basketbol oynun qısa qaydaları:

- **Basketbol meydançası 28 m uzunluğu və 15 m eni olan düzbucaqlı sahədir.**
- **Oyun zamanı hər bir cərimə atışı uğurlu olarsa komandanın hesabına 1 (bir) xal verilir.**
- **Səbətdən 6.75 m məsafəyə qədər olan istiqamətlərdən edilən uğurlu atışlara görə 2 (iki) xal verilir**
- **Səbətdən 6.75 m lik məsafənin xaricindən edilən uğurlu atışa görə 3 (üç) xal verilir.**
- **Cərimə atışları - səbətə atış zamanı müdafiə olunan oyunçu tərəfindən Kobud oyuna görə təyin edilir. Əgər atışa cəhd 6.75 m.- lik xətt daxilindən edilibsə 2 (iki) atış, xaricindən edilibsə 3 ( üç) atış verilir. Kobudluq anında atış uğurlu alınarsa, əlavə olaraq 1 (bir) cərimə atışı təyin edilir.**
- **Oyunda qaydalar çərçivəsindən kənar kobud fiziki təmasa (qayda pozuntusuna) fol deyilir.**
- **İdmandan kənar davranışa görə oyunçulara və məşqçilərə tətbiq edilən cəza növüdür. Oyunçu və ya məşqçi oyun ərzində 2 (iki) texniki fol ilə cəzalanarsa oyunçu oyundan xaric edilir, məşqçi isə oyunun keçirildiyi məkandan xaric edilir. Hər texniki fola görə komanda 1 (bir) cərimə atışı ilə cəzalandırılır və oyun qaldığı yerdən davam edir.**

- **Bilərəkdən edilən kobud qayda pozuntusuna görə təyin edlir. Hər qeyri idman foluna görə 2 (iki) cərmə atışı təyin edilir. Oyunçu oyun ərzində 2 (iki) qeyri idman folu alarsa oyundan kənarlaşdırılır. Top isə cərimə atışından sonra cərimə atışlarını yerinə yetirən komandada qalır.**
- **Oyunda xüsusi amansızlıqla kobudluq edən, rəqibinə, hakimlərə, tamaşaçılara qarşı qeyri etik hərəkətlərə yol verən oyunçuya, məşqçiyə və komandanın digər şəxslərinə tətbiq olunur. Həmin şəxs oyunun keçirildiyi məkandan kənarlaşdırılır. Diskalifikasiya foluna görə 2 (iki) cərimə atışı təyin edilir.**
- **Səbət altında düzbucaqlı eni 6 m, uzunluğu 5.80 m olan sahədir.**
- **Səbət altında düzbucaqlı eni 6 m, uzunluğu 5.80 m olan sahədə, hücum zamanı mövqe üstünlüyünə malik olan topsuz hücumçunun 3 saniyədən çox dayanması 3 saniyəlik qayda pozuntusu deməkdir. Həmin zonada topu ilə olan hücumçu topu çiləyərək hücuma ayrılan vaxtı bitənə qədər manevr edə bilər.**
- **Cərimə xəttinin (5.80 m) arxasından xətti tapdalamadan səbətə atılır. Atış anında və ya atışdan sonra cərimə atışını yerinə yetirən oyunçu top səbətə çatmadan xətti tapdalayarsa və ya xətti keçərsə həmin cərimə atışı ləğv edilir.**
- **əgər həmin səhvlər sonuncu cərimə atışı zamanı qeydə alınarsa oyun dayandırılır və top müdafiə olunan komandaya verilir.**
- **Cərimə atışı zamanı hakim topu verdikdən sonra cərimə atışı atan oyunçu atışı 5 (beş) saniyə ərzində**

**yerinə yetirməlidir, əgər 5 saniyə ərzində yerinə yetirilməzsə həmin cəhd uğursuz sayılır.**

- **Əgər bu hal sonuncu atış zamanı qeyd alınarsa oyun dayndırılır və top müdafiə olunan komandaya verilir.**
- **Oyun zamanı hücumda olan komanda rəqibə aid yarım hissədə mövqe tutduqdan sonra geriyə özünə aid yarım hissəyə ötürmə edərsə və ya özünə aid yarım hissəyə top ilə keçərsə bu hal zona qayda pozuntusu adlanır.**
- **Topu idarə edən zaman sağ və ya sol əl ilə çiləyərsə top əldə olarkən çiyin nahiyyəsindən daha yuxarı şıçrayarsa bu hal qayda pozuntusu hesab edilir.**
- **Top çilənərkən yalnız bir əllə (sağ və ya sol) idarə olunur.**
- **Topu çiləyib tutduqdan sonra mütləq ötürmə və ya səbətə atış edilməlidir. Əks halda topu çiləyib tutduqdan sonra çiləmək davam edilərsə bu qayda pozuntusu hesab olunur.**
- **Topu əldə rəqibin təziqi altında 5 (beş) saniyədən artıq saxlamaq olmaz.**
- **Topu yandan oyuna daxil edərkən oyunçu yan xəttin arxasında mövqe tutur, xətti tapdalamadığına diqqət yetirir və 5 (beş) saniyə ərzində topu oyuna daxil edir.**
- **Yan xətt arxasındakı oyunçu xətti tapdalayarsa və ya topu 5 (beş) saniyə ərzində oyuna daxil etməzsə bu qayda pozuntusu hesab edilir. Bu hal qayda pozuntusu hesab edilir və top oyuna daxil edilməsi üçün rəqib komandaya verilir.**
- **Düzgün icra edilən, lakin, uğursuz alınan sonuncu cərimə atışından sonra top halqadan sıçrayarsa o halda oyun davam edir.**

- **Oyun vaxtı 2 hissə hər hissədə 20 dəqiqədən, bir hissə isə 2 dövrə, hər dövrə 10 dəqiqədən ibarətdi.**
- **İstisna hallarda kiçik yaşlı uşaqlar arasında keçirilən oyunlarda hissələrin vaxtı fərqlidir.(hər hissə müvafiq olaraq 12 dəqiqə, 14 dəqiqə və 16 dəqiqə ola bilər, bu hallarda hər dövrə 6 dəqiqə, 7 dəqiqə və 8 dəqiqə davam edir.)**
- **Hakimin işarəsiylə (fit səsi eşidildikdə) vaxt dayanır.**
- **Meydançanı məhdudlaşdıran xəttin arxasından hücum edən komandanın oyunçusu topu oyuna daxil edir, top oyuna daxil edildikdən sonra meydançada oyunçulardan hər hansı biri topa təmas etdikdə hakimin işarəsiylə vaxt işə salınır.**
- **Oyun vaxtı hücumda olan komanda topu oyuna daxil etdikdən sonra və ya topa yiyələndikdən sonra hücumda olan komanda hesab edilir. Hücum edən komandaya hücumu səbətə atışla başa çatdırmaq üçün maksimum 24 (iyirmi dörd) saniyə hücum vaxtı verilir.**
- **Topun oyuna daxil edilməsi və ya topa yiyələnməsi rəqibə aid yarım sahədə baş verərsə bu zaman hücumda olan komandaya hücumu başa çatdırmaq üçün 24 saniyə deyil, 14 saniyə vaxt verilir.**
- **Əgər komanda rəqibə aid yarım sahədə topa yiyələnərsə ( uğursuz sonuncu cərimə atışından sonra, rəqibə aid yarım sahədə top yan xəttdən oyuna daxil edilərkən, hücumda olan zaman səbətə atışdan sonra halqadan sıçrayan topa yiyələndikdə) hücumu davam etdirmək üçün səbətə atışa qədər komandaya 14 saniyə vaxt verilir.**

- **Özünə aid yarım sahədə topa yiyələnən komanda rəqibin təziqi altında 8 saniyə ərzində topu rəqibə aid yarım sahəyə ötürmə və ya driblinq (top ilə hərəkətdə) vasitəsilə keçirməlidir. Əks halda komanda hücum haqqını itirmiş hesab olunur və top rəqib komandaya verilir.**
- **Təqvimdə birinci göstərilən komanda ev sahibi, ikinci göstərilən komanda isə qonaq komanda kimi qeyd olunur. Təqvimdə A-B komandalarının oyunu göstərilibsə, bu göstəricidə A komandası ev sahibi, B komandası isə qonaq komanda kimi tanınır.**
- **Masa hakimlərinin sol tərəfi sayılan yarım meydançada ev sahibi kimi qeyd olunan komanda, sağ tərəfində isə qonaq komanda kimi qeyd olunan komandaların heyəti əyləşir.**
- **Oyunun başlanmasından 20 dəqiqə əvvəl komandalar vahid idman geyimində yarım sahələrdə oyun öncəsi hazırlıq hərəkətləri ilə məşğul olurlar.**
- **Hazırlıq hərəkətlərini birinci hissədə hər komanda öz heyəti olan tərəfdə edir, ikinci hissənin başlanğıcında isə rəqib komandanın heyəti olan tərəfdə davam etdirilir.**
- **Oyunun əvvəlində A komandası meydançanın sağ yarım hissəsi olan sahədən sol istiqamətə hücum edir, B komandası isə əksinə, meydançanın sol yarım hissəsindən sağ istiqamətə hücum edir.**
- **II hissənin başlanğıcında meydanda komandalar sahələrini (səbətlərini) dəyişirlər. A komandası meydançanın sol yarım hissəsi olan sahədən sağ istiqamətində hücum edir, B komandası isə əksinə,**

**meydançanın sağ yarım hissəsindən sol istiqamətinə hücum edir.**

- **Oyunun əvvəlində topu oyuna daxil edilməsi mərkəz dairənin daxilində hər komandadan bir nəfər olmaq şərtiylə hakimin hava atışı ilə başlayır. Hava atışı zamanı digər oyunçular meydançanın mərkəzində olan dairənin ətrafında olmalıdır.**
- **Ox işarəsi masa hakimlərinin önündə olur.**
- **Ox işarəsi hava atışından sonra, oyun ərzində mübahisəli baş verəcək hallar zamanı hücum istiqamətini təyin edən vasitədir.**
- **Hər bir mübahisəli vəziyyətdən sonra hücum ox işarəsinin göstərildiyi istiqamətdə davam etdirilir. Top oyuna daxil edildikdən sonra "Ox" işarəsinin istiqaməti əks tərəfə dəyişdirilir.**
- **Ehtiyyat oyunçular oyun vaxtı komanda üçün ayrılmış oturacaqlarda otururlar.**
- **Oyun zamanı ehtiyyat oyunçu oturduqu yerdən qalxmamalı, oyuna müdaxilə etməməli, hakimlərin və ya rəqib oyunçulara qarşı qeyri etik hərəkətlərə yol verməməlidir.**
- **Ehtiyyat oyunçu oyuna daxil olmaq üçün məşqçinin göstərişi ilə masa hakimlərinə müraciət edir və yalnız oyunun hakiminin işarəsindən sonra meydana daxil ola bilər.**
- **Məşqçi komanda üzvlərinin oyuna hazırlıqlığına və onların təhlükəsizliyinə cavabdehdir.**
- **Məşqçi oyundan əvvəl oyun protokolunun doldurulmasında iştirak edir və start heyətini müəyyənləşdirib masa hakimlərinə təqdim edir.**

- **Məşqçi oyun vaxtı onun üçün ayrılmış xüsusi xətlənmiş yerdən kənara çıxmamalıdır.**
- **Oyun zamanı məşqçi oyunçu dəyişiklikləri həyata keçirir, fasilələr götürə bilir və etik normaları aşmadan öz yetirmələrinə tapşırıq və tövsiyələrini verə bilər.**
- **Məşqçinin hakimlərin və masa hakimlərinin fəaliyyətinə müdaxilə etmə hüququ yoxdur, əks halda məşqçiyə qarşı mövcud qaydalara uyğun olaraq cəza tədbirləri görülür.**
- **Ehtiyyat oyunçu məşqçinin göstərişi ilə hakimlər masasına yaxınlaşır əvəz etmə haqqında məlumat verir və onun üçün ayrılmış oturacaqda əyləşir.**
- **Əvəz edən oyunçu yalnız oyun vaxtı dayandıqdan sonra hakimin işarəsi ilə əvəz edilən oyunçu meydanı tərk etdikdən sonra meydana daxil ola bilər. Əks halda öz başına əvəzetmə edən komanda texniki xəbərdarlıqla cəzalandırılır.**
- **Əgər məşqçi hər hansı səbəbdən oyunda iştirak edə bilmirsə, onun səlahiyyətlərini məşqçi köməkçisi yerinə yetirir.**
- **Məşqçi köməkçisi komanda üzvlərini oyuna hazırlamalı. Oyun öncəsi hazırlıqlara başçılıq etməli, məşqçinin tapşırıqlarını oyunçular tərəfindən yerinə yetirmələrinə nəzarət etməli və məşqçi olmadıqda onun səlahiyyətlərini icra etməlidir.**
- **Taym aut 1dəqiqəlik fasilə deməkdir.**
- **Hər bir komandanın I hissədə -2, II hissədə - 3 taym aut götürmə hüququ var. I hissədə götürülməyən taym aut II hissəyə keçmir.**

- **Taym autu məşqçi götürə bilər, məşqçi olmadığı halda məşqçi köməkçisi götürə bilər.**
- **Oyunun sonuna 2 dəqiqə vaxt qalarsa (II hissənin bitməsinə) 3 taym aut qalırsa, onlardan biri silinir və iki taym aut qalır.**
- **Əlavə hissələrdə hər əlavə hissə üçün 1 taym aut hüququ verilir.**
- **Oyun vaxtı bitdikdə əgər qalib müəyyənləşməyibsə, qalibi müəyyənləşdirmək üçün əlavə hissə oynanılır.**
- **Əgər əlavə hissədə qalib müəyyənləşməyibsə yenidən əlavə hissə (lər) oynanılır, qalib müəyyən olunana qədər.**
- **Oyun ərzində oyunçunun 5 (beş) fol limiti olur. 5 ci (beş) foldan sonra oyunçu oyunu tərk edir və oyun bitənə qədər oyuna daxil olma hüququnu itirir.**
- **Hər dövrədə komandanın fol limiti 4 (dördə) bərabərdir. Növbəti follarda (4+) fol ilə cəzalandırılmış komanda 2 (iki) cərimə atışı ilə cəzalandırılır.**
- **Əgər limitdən xaric fol hücum folu kimi təsbit edilərsə bu halda cərimə atışları tətbiq edilmir.**
- **Dövrədən dövrəyə keçdikdə komandanın fol limiti sıfırlanır. Yalnız 4 cü dövrədən sonra əlavə hissə oynanılarsa komandanın fol limiti sıfırlanmır, 4 cü dövrədə olduqu kimi davam edir.**

- **İki rəqib oyunçunun eyni anda top uğrunda mübarizəsinə mübahisəli top deyilir.**
- **Hakimlərin qərarlarında anlaşılmazlıq olduqda, onların qərarında yekdillik olmadıqda mübahisəli top təyin edilir.**
- **Bu situasiyalarda oyunun davam etdirilməsi üçün “OX” işarəsinin istiqamət göstəricilərinə istinad edilir.**

- **Topun meydanı tərk etməsini təsbit etmək üçün top məhdudiyyət xəttinin üzərinə və ya meydan kənarında yerə təmas etməlidir.**
- **Topu idarə edən oyunçunun bədəninin hər hansı bir hissəsi məhdudiyyət xəttini və ya meydan kənarı ilə təmas etmişdisə (hətda top meydanda olsada) bu zaman top meydanı tərk etmiş hesab edilir.**
- **Oyunçu meydan kənarında olduqda və ya məhdudiyyət xəttinin üzərində dayandıqda (meydan xəttinin üzərindən və ya kənarından meydana daxil olarkən meydança ilə təmas etmədən) topa toxunarsa və ya ötürmə qəbul edərsə bu zaman top meydanı tərk edilmiş hesab olunur.**
- **Bu stiuasiyalar zamanı topu rəqib komanda oyuna hakimin göstərdiyi yerdən daxil edir.**
- **Oyunun başlanılması üçün hər iki komanda minimum start heyətə (ən azı 5 nəfər) malik olmalıdır.**
- **Əgər hər hansı bir komandanın oyun başlayan vaxtda start heyəti tam hazır vəziyyətdə deyilsə o zaman mövcud qaydalara uyğun olaraq, start heyəti hazır vəziyyətə gətirilməsi üçün komandaya 15 dəqiqə vaxt verilir.**
- **15 dəqiqə ərzində start heyəti (ən azı 5 nəfər) meydana daxil olmursa o zaman komandaya texniki məğlubiyyət verilir.**
- **Bu hal oyunda iştirak edən hər iki komandada baş verərsə o zaman hər iki komanda texniki məğlubiyyət ilə cəzalandırılır.**
- **Turnir, birincilik və ya çempionat ərzində 2 texniki məğlubiyyət almış komanda yarışlardan kənarlaşdırılır**